# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin kollegiyasının tərkibi haqqında" 2007-ci il 25 iyun tarixli 54 nömrəli, "M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının strukturunun təsdiq edilməsi haqqında" 2007-ci il 31 iyul tarixli 62 nömrəli, "Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Kollegiyasının tərkibi haqqında" 2007-ci il 6 dekabr tarixli 109 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Naxçıvan şəhəri və rayon icra hakimiyyətlərinin orqanı olan qəzet redaksiyalarının ştat cədvəllərinin təsdiq edilməsi haqqında" 2007-ci il 14 fevral tarixli 17 nömrəli, "Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı və Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti "Vətən" Cəmiyyəti işçilərinin əməkhaqları barədə" 2007-ci il 9 mart tarixli 29 nömrəli, "Naxçıvanqaz" Məhdud Məsuliyyətli Cəmiyyətinin mərkəzi aparatında və onun tabeliyində olan idarə və müəssisələrdə çalışan işçilərin əməkhaqları barədə" 2007-ci il 13 mart tarixli 31 nömrəli, "Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin istifadəyə verilmiş obyektlərinə əlavə ştat vahidlərinin verilməsi haqqında" 2007-ci il 9 aprel tarixli 43 nömrəli, "Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasında çalışan işçilərin aylıq vəzifə maaşları haqqında" 2007-ci il 25 aprel tarixli 46 nömrəli, "Naxçıvan Muxtar Respublikasında sabit şəbəkə telefonlarından istifadəyə görə aylıq abunə haqlarının, şəhərlərarası və beynəlxalq telefon danışıqlarının yeni tariflərinin tətbiq edilməsi haqqında" 2007-ci il 30 may tarixli 48 nömrəli, "Naxçıvan Muxtar Respublikasında rəssam və heykəltəraşlar üçün yeni emalatxanaların istifadəyə verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2007-ci il 1 iyun tarixli 50 nömrəli, "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan Filialının Əsasnaməsinin təsdiq edilməsi haqqında" 2007-ci il 3 iyul tarixli 56 nömrəli, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 26 sentyabr 147 nömrəli qərarı haqqında" 2007-ci il 3 oktyabr tarixli 79 nömrəli, "Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Əyar Şöbəsinin Əsasnaməsinin və ştat vahidlərinin sayının təsdiq edilməsi haqqında" 2007-ci il 26 oktyabr tarixli 89 nömrəli, "Buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalının stimullaşdırılması məqsədi ilə dövlət büdcəsinin**

**vəsaiti hesabına yardım verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 noyabr tarixli 181 nömrəli qərarı haqqında" 2007-ci il 26 noyabr tarixli 101 nömrəli, "Naxçıvan Muxtar Respublikasında məzarlıqlarda dəfn zamanı qəbirlərin ölçülərinin qaydalara uyğun müəyyən edilməsi haqqında" 2007-ci il 27 noyabr tarixli 103 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin IV hissəsini və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin kollegiyasının tərkibi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 54 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

2. "M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının strukturunun təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 31 iyul tarixli 62 nömrəli Qərarının 3-cü hissəsi ləğv edilsin.

3. "Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Kollegiyasının tərkibi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 dekabr tarixli 109 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

4.1. "Naxçıvan şəhəri və rayon icra hakimiyyətlərinin orqanı olan qəzet redaksiyalarının ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 14 fevral tarixli 17 nömrəli Qərarı;

4.2. "Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı və Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti "Vətən" Cəmiyyəti işçilərinin əməkhaqları barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 9 mart tarixli 29 nömrəli Qərarı;

4.3. "Naxçıvanqaz" Məhdud Məsuliyyətli Cəmiyyətinin mərkəzi aparatında və onun tabeliyində olan idarə və müəssisələrdə çalışan işçilərin əməkhaqları barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 13 mart tarixli 31 nömrəli Qərarı;

4.4. "Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin istifadəyə verilmiş obyektlərinə əlavə ştat vahidlərinin verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 9 aprel tarixli 43 nömrəli Qərarı;

4.5. "Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasında çalışan işçilərin aylıq vəzifə maaşları haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 aprel tarixli 46 nömrəli Qərarı;

4.6. "Naxçıvan Muxtar Respublikasında sabit şəbəkə telefonlarından istifadəyə görə aylıq abunə haqlarının, şəhərlərarası və beynəlxalq telefon danışıqlarının yeni tariflərinin tətbiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 may tarixli 48 nömrəli Qərarı;

4.7. "Naxçıvan Muxtar Respublikasında rəssam və heykəltəraşlar üçün yeni emalatxanaların istifadəyə verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 iyun tarixli 50 nömrəli Qərarı;

4.8. “Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan Filialının Əsasnaməsinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 3 iyul tarixli 56 nömrəli Qərarı;

4.9. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 26 sentyabr 147 nömrəli qərarı haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 3 oktyabr tarixli 79 nömrəli Qərarı;

4.10. “Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Əyar Şöbəsinin Əsasnaməsinin və ştat vahidlərinin sayının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 26 oktyabr tarixli 89 nömrəli Qərarı;

4.11. “Buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalının stimullaşdırılması məqsədi ilə dövlət büdcəsinin vəsaiti hesabına yardım verilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 noyabr tarixli 181 nömrəli qərarı haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 26 noyabr tarixli 101 nömrəli Qərarı;

4.12. “Naxçıvan Muxtar Respublikasında məzarlıqlarda dəfn zamanı qəbirlərin ölçülərinin qaydalara uyğun müəyyən edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 noyabr tarixli 103 nömrəli Qərarı.

5. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Cabbar Musayev**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 6 ” “ mart ” 2026-cı il

№ 8